# “TURAZ Şahini - 2016” taktiki-uçuş təlimləri başa çatıb





Türkiyənin Konya şəhərində keçirilən “TURAZ Şahini - 2016” birgə taktiki-uçuş təlimlərinin növbəti günündə Azərbaycan və Türkiyə hərbi hava qüvvələrinin pilotları birgə əməliyyat keçiriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, əməliyyat zamanı qarşıya qoyulan tapşırıq şərti düşmənin strateji obyektlərini və onları mühafizə edən təyyarələrini məhv etmək olub.

Uçuşlardan əvvəl təyyarəçilərlə brifinq keçirilib, əməliyyat planı, hava şəraiti və digər məsələlər müzakirə edilib. Azərbaycan təyyarəçiləri “F-16” qırıcı, türk pilotlar isə “MiQ-29” qırıcı və “Su-25” bombardmançı təyyarələrində əməliyyata qatılıblar.

* * *

Azərbaycan və Türkiyə hərbi hava qüvvələrinin iştirakı ilə Konya şəhərində keçirilən “TURAZ Şahini - 2016” taktiki-uçuş təlimləri başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Hərbi Hava Qüvvələrinin komandanı, general-leytenant Ramiz Tahirov və Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı, ordu generalı Abidin Ünal təlimlərin yekun mərhələsini izləyiblər.

Hər iki komandan uğurla başa çatan təlimlərdə uçuş, texniki və təminat heyətlərinin böyük təcrübə qazandıqlarını bildirib. Hərbi pilotların döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılmasında bu kimi təlimlərin əhəmiyyəti xüsusi qeyd olunub və növbəti birgə təlimlərin keçirilməsinin zəruriliyi də əminliklə ifadə edilib.

Sonda “TURAZ Şahini - 2016” təlimlərinin iştirakçıları aviasiya bazasının ərazisində xatirə olaraq ağac və gül kolları əkiblər.

***AZƏRTAC***